Səh. 2 Xoşbəxtliyin əlçatan düsturu – Azər Musaoğlu

Səh. 5 Niyə xoşbəxt ola bilmirik?! – Esmira Ələkbərli

Səh. 5 Elmə və təhsilə həsr olunmuş ömür – Leyla Yusifova

Səh. 6 Sözdə müasirlik – Validə Fətullayeva

Səh. 3 Dükan qabağındakı adam – Afiq Muxtaroğlu

Səh. 4 VAHİD MİLLİ İMTAHANLAR İYULUN 3-DƏ BAŞLAYIR

Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN
2024-CÜ İL
№ 11 (206)


# Yeni YOL


Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## ABŞ GÜRCÜSTANIN HÖKUMƏT ÜZVLƏRİNƏ VƏ BİR SIRA VƏTƏNDAŞLARA SANKSİYALAR TƏTBİQ EDİB




ABŞ "xarici təsir" qanununun qəbul edilməsi ilə əlaqədar Gürcüstanın hakim "Gürcü Arzusu" partiyasının üzvlərinə, Gürcüstan parlamentinin deputatlarına, həmçinin aksiyaların dağıdılmasında iştirak edən polis zabitlərinə sanksiya tətbiq edib. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller keçirdiyi brifinqdə bildirib.

O, sanksiyaların Gürcüstanın təxminən 20-30 rəsmisinə və onların birinci dərəcəli ailə üzvlərinə şamil edildiyini vurğulayıb.

*"ABŞ "Gürcü Arzusu" partiyasının anti-demokratik əməllərindən, həmçinin onun bu yaxınlardakı bəyanatlarından və ritorikasından dərin narahatlıq keçirir. Bu əməllər Gürcüstanı Avropa gələcəyindən çıxarmaq riski daşıyır və Gürcüstan konstitusiyasına və öz əhalisinin istəyinə ziddir",* – Miller deyib.

Metyu Miller əlavə edib ki, Dövlət Departamenti bu əməllərə görə məsuliyyət daşıyan rəsmilərə, Gürcüstan vətəndaşlarının sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılmasında rol oynayan, həmçinin aksiyaçılara zorakılıqla müdaxilə edilməsində iştirak edənlərə, vətəndaş cəmiyyəti üzvlərinin təhdid edilməsinə görə məsuliyyət daşıyanlara və dezinformasiya yayılmasına görə məsuliyyət daşıyanlara, onların ailə üzvlərinə viza məhdudiyyəti tətbiq edib.

*"Viza məhdudiyyətlərinin ilk tranşı "Gürcü Arzusu" partiyasının üzvlərini, parlament üzvlərini, hüquq mühafizə orqanı əməkdaşlarını və özəl şəxsləri əhatə edir. Biz hələ də ümid edirik ki, Gürcüstanlı liderlər öz əməllərini bir daha gözdən keçirəcəklər. Gürcüstan hökumətinin öz trayektoriyasını dəyişmək üçün hələ də vaxtı var",* – Dövlət Departamentinin rəsmisi deyib.

Miller Gürcüstan hökuməti öz mövqeyini bir daha nəzərdən keçirməyəcəyi və Avro-Atlantik inteqrasiya istiqamətində addımlar atmayacağı təqdirdə ABŞ-nin əlavə tədbirlər görməyə hazır olduğunu qeyd edib.

## GÜRCÜSTAN TÜRKİYƏDƏN NATO STANDARTINA UYĞUN ZİREHLİ TRANSPORTYORLAR ALIB



Gürcüstanın Müdafiə Qüvvələri Türkiyədən NATO standartlarına uyğun yeni "VURAN" zirehli transportyorları alıb. Hərbi texnikanın tədarükü Türkiyə ilə Gürcüstan arasında hərbi əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı imzalanmış müqaviləyə əsasən həyata keçirilib. Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, Gürcüstanın Müdafiə Qüvvələrinin 4-cü piyada briqadasının Vaziani hərbi poliqonunda zirehli texnikalarının təhvil verilməsi mərasimi keçirilib.

Tədbirdə müdafiə nazirinin müavini Serqo Canelidze, Müdafiə Qüvvələri komandanının müavini, briqada generalı İrakli Çiçinadze, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay və müdafiə attaşesi iştirak ediblər.

Türkiyə Milli Müdafiə Nazirliyinin tabeliyində olan "ASFAT" şirkətinin baş meneceri də tədbirdə iştirak etmək üçün Gürcüstana gəlib.

Qeyd olunub ki, "VURAN" avadanlığı və alt sistemləri olan zirehli avtomobillər NATO standartlarına uyğundur.

Gürcüstanın Müdafiə Qüvvələrinin qeyd olunan zirehli texnika ilə təchiz edilməsi ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə, Türkiyə ilə Gürcüstan arasında əməkdaşlığın dərinləşməsinə əhəmiyyətli töhfə verəcək.

## SALOME ZURABİŞVİLİ İKİNCİ MÜDDƏTƏ NAMİZƏDLİYİNİ İRƏLİ SÜRMƏK İMKANINI İSTİSNA ETMİR



Gürcüstan Prezidenti Salome Zurabişvili deyib ki, o, ikinci müddətə namizədliyini irəli sürmək imkanını istisna etmir, lakin bunun üçün ilk növbədə müxalifətin 2024-cü il oktyabrın 26-da keçiriləcək parlament seçkilərində qalib gəlməsi lazımdır. Bu barədə o, gənclərlə görüşündə bildirib.

*"Mən dəfələrlə demişəm və yenə də təkrar edirəm ki, işimizi sona çatdırmaq üçün lazım olan yerdə olacağam. Seçkilərin nəticəsini müdafiə edəcək, onu Brüsselə çatdıracaq və danışıqların aparılacağına dair təsdiqi alacaq şəxs olmaq istəyirəm. Bu prezident rolunda olacaq, ya yox, gələcək göstərəcək. Hər şeyə hazıram",* – deyə S.Zurabişvili qeyd edib.

Qeyd edək ki, Salome Zurabişvili 2018-ci ildə Gürcüstanın prezidenti olub. Sonra o, istisna olaraq adi beş il əvəzinə altı il müddətinə seçilib, çünki növbəti prezident ümumi, ümumxalq səsverməsi ilə deyil, 300 seçici tərəfindən seçiləcək, onların arasında parlament üzvləri və yerli hökumət nümayəndələri də olacaq. Növbəti prezident seçkiləri parlament seçkilərindən sonra 2024-cü ildə keçiriləcək.



# XOŞBƏXTLİYİN ƏLÇATAN DÜSTURU

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Deyilənə görə, dünyanın ən xoşbəxt uşaqları Niderlandda yaşayırlar. Təbii ki, bu qənaətə gəlmək üçün müxtəlif araşdırmalar aparılıb... Mən burada uzun-uzadı Niderland haqqında, bu araşdırmalar haqqında danışmaq istəmirəm. Niderland haqqında dəyərli şairimiz Afiq Muxtaroğlu qəzetimizdə gedən silsilə yazıları ilə yetərincə məlumat verib. Var olsun!

Bu yaxınlarda gürcü saytlarında holland uşaqlarının dünyanın ən xoşbəxt uşaqları olmaları üçün valideynlərinin heç vaxt etmədiyi davranışlar haqqında uşaq psixoloqunun yazısı qarşıma çıxdı. Psixoloq valideynlərin uşaqların daha tolerant, müstəqil, azad, xoşbəxt olmalarına kömək edən beş davraşını müəyyən edib ki, bu davranışları holland valideynlər heç vaxt etmirlər.

Məsələn, hollandlar velosipeddən istifadə etdikləri halda uşaqları heç vaxt maşınla məktəbə aparmırlar, velosipedlə aparırlar; uşağın 9-10 yaşı olanda məktəbə velosipedlə özü gedib-gəlir. Hətta pis hava şəraiti də onlara velosipeddən istifadə etməyə mane olmur, yağmurluqdan, başa geyinilən çətirdən istifadə edirlər.

İndi təsəvvür edin bizdə ata, ya ana uşağını velosipedə mindirib məktəbə aparır. Bizdə uşaq nəinki 9-10 yaşında, heç 14-15 yaşında da velosipedlə məktəbə getməz. Çünki bizdə velosiped sürmək ayıbdır, qəbahətdir. Qadın bir yana, kişinin velosiped sürməsinə pis baxırıq. Velosiped sürən kişilərin dalıyca "yekə kişidi velosiped sürür" deyənləri çox eşitmişik. Uşaqlarımıza da velosipedi, yenə də, qonşunun balasından seçilməsin deyə alırıq. Maraqlı məqam isə odur ki, bizdə bahalı maşını olub velosiped sürənlərə heç kəs heç nə demir, qınanılan maşını olmayıb velosiped sürənlərdir. Nə isə, keçək holland valideynlərin etmədiyi ikinci davranışa.

Hollandlar uşaqlarına çox nəzarət etmirlər, üstündə çox əsmirlər. Məsələn, uşağı parkda, ya oyun meydançasında sərbəst buraxırlar. Uşaq yıxılanda bizdəki kimi vay-şivən salıb, üstəlik bir-iki goppa da ilişdirmirlər. Holland uşaqları kiçik yaşlarından ətrafı sərbəst kəşf etməyi, özlərinə inanmağı, yıxılanda özləri ayağa qalxmağı öyrənirlər. Bizim uşaqlar yıxılanda qorxudan ağlayırlar ki, indicə üstündən də valideyn əzişdirəcək. Və beləliklə də bizdə yıxılana balta çalmaq uşaqlıqdan formalaşır. Bizdə uşaq böyüyüb arvad alana qədər az qala valideynləri ilə bir otaqda yatır. Bu, iki.

Holland valideynlərin heç vaxt etmədikləri üçüncü davranış işlə bağlıdır. Belə ki, hollandlar həftədə 40 saatdan çox işləmirlər, onların xoşbəxt olmalarının bir səbəbi də iş-həyat balansını qorumalarıdır. Psixoloqun yazdığına görə, 2021-ci ildə aparılan bir araşdırma Niderlandda iş yerlərinin demək olar ki, yarısının "part-time" iş olduğunu göstərir. Holland atalar həftədə ən azı bir gün uşaqları ilə vaxt keçirirlər – gəzintiyə çıxırlar, muzeyləri, qalereyaları, parkları ziyarət edirlər, evdə uşaqlarla müxtəlif maraqlı, əyləncəli, intellektual oyunlar oynayırlar və s.

Bizdə ata səhər çıxır, axşam gəlir (burada, əlbəttə, günah tək atada deyil, yaşadığı ölkənin siyasi, iqtisadi sistemindədir həm də). Ata uşağın tək mədəsini və əynini fikirləşir deyə təhsili, maraqları, gələcəyi yaddan çıxır. Özü də bilmir uşaq necə böyüdü. Bir də görür ki, oğlu, ya qızı, ərə getdi, arvad aldı, qız qaçırtdı, qaçırıldı, adam vurdu, həbs olundu və daha nələr, nələr...

Dördüncü. Bu davranış da üçüncü ilə əlaqədardır. Çünki uşaqlarla birgə yemək yemək üçün ata da stol arxasında oturmalıdır. Ata isə ya işdə olur, ya evə gec gəlir, ya da restoranda, kafedə dostları ilə yeyib-içir... Hollandlar heç vaxt uşaqlarsız yemək yemirlər, gündə heç olmasa bir dəfə bütün ailə birlikdə yemək yeyir. Bu, holland uşaqlarını xoşbəxt edən səbəblərdən biridir.

Nəhayət beşinci və məncə, ən əsas davranış: holland valideynlər uşaqlarına heç vaxt valideyn sözünün qəti və son olmasını demirlər. Uşaqların fikirlərinə hörmətlə yanaşır, qərar qəbul etdikdə uşaqlarının istəklərini də nəzərə alırlar, onlarla danışırlar, müzakirələr aparırlar. Uşaqlar kiçik yaşlarından danışıq aparmağı və qərar qəbul etməyi öyrənirlər, özlərinə inamları artır, özlərinə hörmət etməyə başlayırlar.

Bəs bizdə? – Bizdə uşağı adam yerinə qoyan yoxdur. Uşağın fikrini öyrənmək hara, biz hara? Uşağın geyimindən tutmuş yeməyinə kimi, məktəbindən tutmuş universitetinə kimi, ixtisasa kimi (əlbəttə, əgər valideyn bununla maraqlanırsa), kiminlə ailə qurmağından tutmuş neçə uşaq dünyaya gətirməyinə kimi ata, ana, nənə, baba, xala, əmi, dayı, bibi qərar verir. Axı qızı özbaşına qoysan, ya halvaçıya gedər, ya nağaraçıya...

Nə isə, nə qədər danışsaq da, yazsaq da yenə eyni yerə gəlib çıxırıq, eyni cümlədən sonra nöqtə qoyuruq. Yuxarıda sadaladığım bu beş davranışla doğrudan da dünyanın ən xoşbəxt uşağı olmaq mümkündürsə, xoşbəxt olmaq üçün Niderlanda getməyə gərək yoxdur, istəsək elə buralarda da xoşbəxt ola bilərik demək. Dünyanın ən xoşbəxt Niderland uşaqlarının sağ əli dünyanın bütün bədbəxt uşaqlarının başına.

# SİYASİ ŞƏRHÇİ ŞAHİN CƏFƏRLİ: GÜRCÜSTANDA YARANMIŞ VƏZİYYƏTİN ƏSAS SƏBƏBKARI ÖTƏN MÜDDƏTDƏ ÖLKƏNİN DEMOKRATİK NAİLİYYƏTLƏRİNİ TƏDRİCƏN ARADAN QALDIRARAQ YUMŞAQ AVTOKRATİYA BƏRQƏRAR ETMİŞ BİDZİNA İVANİŞVİLİDİR



Avropa Komissiyası Ukrayna və Moldova ilə üzvlük müzakirələrinə başlamaq haqqında tövsiyə qərarı qəbul etdi. Yekun qərarı Avropa Birliyi Şurası verəcək.

Gürcüstan bu mərhələdə prosesdən kənarda qaldı. Hətta Avropa Komissiyası bu ölkə ilə vizasız rejimi dayandırmağı müzakirəyə çıxarmağa hazırlaşır.

Dünən (6 iyun – Red.) ABŞ Dövlət Departamenti Gürcüstan hakimiyyət nümayəndələrinə qarşı viza sanksiyalarının tətbiqinə start verdi. Hələlik məhdud sayda şəxsə (30-a yaxın) qarşı və hökumətə xəbərdarlıq siqnalı mahiyyəti daşıyan sanksiya tətbiq olunub. "Gürcü Arzusu" geri addım atmasa, tədbirlər sərtləşərək davam edəcək.

Gürcüstanda hazırda yaranmış vəziyyətin əsas səbəbkarı, şübhəsiz ki, ötən müddətdə ölkənin demokratik nailiyyətlərini tədricən aradan qaldıraraq yumşaq avtokratiya bərqərar etmiş Bidzina İvanişvilidir. Lakin Gürcüstanın (eləcə də Ukraynanın) məsələsini acı bağırsaq kimi uzatmış ABŞ və Avropa Birliyi də məsum deyil.

2012-ci ildə Saakaşvilinin hakimiyyətdən getməsi və "Gürcü Arzusu"nun gəlib, bir tərəfdən ehtiyatlı və səbirli avrointeqrasiya siyasəti aparması, digər tərəfdən isə Rusiya ilə məsafəli, amma praqmatik və stabil əlaqələr yaratması Qərbdə məmnunluqla qarşılandı. Saakaşvilinin Rusiya ilə açıq qarşıdurmaya getməsi Vaşinqton və Brüsselin qəzəbinə səbəb olmuşdu və elə o vaxtdan Qərb Saakaşvilini tamamilə sildi.

Ukraynada müharibə başladıqdan sonra geosiyasi situasiya radikal dəyişikliyə məruz qaldı və Qərb o vaxta qədər postsovet məkanında apardığı RUSİYA MƏRKƏZLİ SİYASƏTdən imtina etdi. "Gürcü Arzusu"nun güc mərkəzləri arasında müəyyən balansa əsaslanan siyasəti Qərbi qane etməməyə başladı və onlar Tbilisidən Saakaşvili dövründə olduğu kimi, birmənalı mövqe və qəti seçim tələb etdilər. "Gürcü Arzusu" isə komfort zonasından çıxmaq istəmədi, çünki Rusiya ilə qurduğu əlaqələr ölkədaxili sosial-iqtisadi stabilliyə mühüm töhfə verir. Moskva öz daxili bazarını Gürcüstan üçün açıb və bu ölkənin 2-ci böyük ticarət tərəfdaşıdır. Ukrayna müharibəsindən sonra Moskvanın göz yumması (və ya şərait yaratması) nəticəsində Gürcüstana axışan Rusiya orta təbəqəsinə mənsub, əlində vəsait olan şəxslər orada bir növ investor qismində çıxış etdilər.

Çinlə də ciddi yaxınlaşma var və həqiqi mənada strateji tərəfdaşlıq qurulub. Bu günlərdə Gürcüstan hökuməti hələ Saakaşvili dövründə icrasına başlanılmış Anakliya dərin dəniz limanı layihəsini (49 % pay) Çinin dövlət şirkətlərinə verdi. Bütün bunlar Qərbdə narazılıq və narahatlıqla qarşılansa da, içəridə "Gürcü Arzusu"nun reytinqinə müsbət təsir göstərir.

Amma önəmli məqam budur ki, "Gürcü Arzusu"nun seçicilərinin əksəriyyəti avroatlantik inteqrasiyanı dəstəkləyir. Onlar hökumətin indiyə qədər ölkəni məhz bu istiqamətdə apardığına əmin olublar. Avropa və ABŞ-da çoxlu sayda gürcü miqrant yaşayır-çalışır, onların vətənə göndərdiyi pul baratları da sosial stabilliyə töhfə verir. Qərblə iqtisadi əlaqələr də Gürcüstan üçün çox vacibdir. Dərinə getmədən təkcə onu qeyd etmək kifayətdir ki, ölkənin ixrac gəlirlərində minik avtomobilləri ilk sıradadır. Məsələn, bu ilin ilk rübündə Gürcüstan minik avtomobilləri ixracından 444 milyon dollar gəlir əldə edib (Müqayisə üçün: ixracatda 2-ci başlıq olan şərab məhsullarından eyni dövrdə 84 milyon dollar qazanılıb). Bu avtomobillərin əksəriyyəti ABŞ və Avropadan gətirilir və onların reeksportu həyata keçirilir.

ABŞ və Avropa ilə münasibətlərin pozulduğu, viza rejiminin dayandırıldığı və ölkənin Qərbdən təcrid olunduğu bir şəraitdə əhalinin məmnuniyyəti və "Gürcü Arzusu"na dəstəyi davam edəcəkmi? Bu sualın cavabını oktyabr seçkilərində görəcəyik və xalqın seçimi Gürcüstanın taleyini müəyyənləşdirəcək, ümumən regionun da gələcəyinə təsir göstərəcək.

# ƏN PİS TƏNHALIQ HƏQİQİ DOSTUN OLMAMASIDIR



Mənə sual versələr, əsl dost necə olmalıdır? Deyərəm, əsl dost səni səndən çox sevməlidir. İnsanlar təbiətlərinə görə tək yaşaya bilməzlər. Onların sevinclərini, həyəcanlarını, qorxularını və kədərlərini bölüşmək üçün başqa insanlara ehtiyacları var. Bu hiss və duyğuları paylaşdığımız insanlara dost deyirik.

Həyatımız boyu çoxlu dostlarımız olur. Bəziləri ilə ünsiyyətimiz pozulur, bəziləri ilə bu bağ illərlə davam edir. Hətta elə dostluqlar var ki, ömür boyu bitmir, zamanla dostluğa çevrilir, bəzilərimiz belə dosta sahib insanlara həsrətlə baxırıq.

Dostluq qarşılıqlı maraqlara əsaslanan münasibət deyil. Dostluq sosial şəbəkələrdə paylaşa biləcəyin şəkillərdən ibarət bir şey də deyil. Dost çəkinmədən etibar edə biləcəyiniz, sahib olduğunuz hər şeyi paylaşa biləcəyiniz, birlikdə vaxt keçirə biləcəyiniz və şərtsiz sevə biləcəyiniz xüsusi bir insandır. İnsanlar zəifliklərini bilməsinlər deyə dost bu zəiflikləri ört-basdır etməyə çalışandır. Enerjinizin tükəndiyi və ümidsizliyə qapıldığınız anlarda dost ümiddir. Səhvə sürükləndiyiniz zaman sizi o səhvdən çıxarandır. Dost həmişə gedə biləcəyiniz bir limandır. İnsanın dostu yanında olanda çətin günlər daha asan keçir. Dostun dəstəyi ilə uğura və xoşbəxtliyə daha asan çatmaq olur. Bu həyatın pis tərəflərinə tək dözmək asan deyil. O qədər pis anlarımız olur ki, içində olduğumuz vəziyyəti kiməsə danışmaq və bununla da rahatlanmaq istəyirik. Belə vəziyyətlərdə ilk ünvanımız sevdiyimiz dostlardır.

Dostluq bu dünyanın ən gözəl şeylərindən biridir. Ətrafımızda özümüzə uyğun gördüyümüz insanlarla dostluq etməliyik. Amma biz yaxşı ürəkli dostlarımızı seçməliyik. Çünki dost dar gündə tanınar cümləsi öz aktuallığını itirib. İndi dostu, əksinə, yaxşı gündə tanımağa başlayırsan. Bir müsahibədə eşitmişdim. Deyir, çətin günlərin öhdəsindən özümüz gəlirik. Ən azından xoş günümüzə sevinən bir dost tapaq. Onu da tapmaq olmur.

Bir söz var, deyir, sənin yaxının sənə heç nə eləməz. Bu gün elə deyil. Elə nə edir sənin yaxının, dostun, qohumun sənə edir. Artıq bilmirsən, kimə inanasan. Dostluq eləyirsən, doğmandan seçmirsən, eyni qabdan yemək yeyib, su içirsən, yeri gəlir ovcunda olan beş-üç manatını bölüşürsən, vitrində bir şey görüb dostu düşünürsən, bunu çox bəyənər, alsam sevinər deyib alırsan. Ona qardaş olursan, bacı olursan, yaxın münasibət bəsləyirsən. Dərdini dərdin, uğurunu uğurun bilirsən. Sən demə bunları etmək bəzən kifayət etmirmiş. İnsanoğlu aldatmağı çox yaxşı bacarırmış. Aldadıldığının peşmanlığını da, təəssüflər olsun ki, bir müddət sonra xeyli çəkməli olursan... Həmişə belə olmurmu?! Güvəninin nə dərəcədə qırılmağından çox kim tərəfindən qırılmağı incidir insanı.

Ağacı qurd içindən yeyər deyimi var. Həyatımıza böyük təsiri olan pislikləri edən birini axtarırıqsa bu prosesə öncə ətrafımız və içimizdən başlamalıyıq. Bizə zərər verə biləcək insanlar bizlərdən olur həmişə. Çünki yadlar bizim zəif nöqtələrimizi, bizi haradan vuracaqlarını müəyyən edə bilməzlər. Yadların vurduğu ox belə dərin yaralamaz. Ona görə ki, həmin oxda nə parça-parça olan güvən, nə dost xəyanəti, nə də doğmalıq olur. Dost dediyimiz insanlar bizə pislik edərlərsə, yaxşılıq etməyimizə mane olarlarsa, pis günlərimizdə yanımızda olmazlarsa o insanlarla dost olmağın mənası yoxdur. Nə edirsən et, əgər qarşındakı insan doğrudan düşüncəli biridirsə, səni yaxşı tanıyırsa, sənə dost deyirsə əmin ol, sənin səssizliyini belə başa düşəcək.

Bu məqamda Ömər Xəyyamın tam yerində dediyi çox sevdiyim bir sözü var: "Kimsə qızılgülün ətrini anlamaz, kimsə acı otlardan belə bal hazırlayar, kiməsə etdiyin ən xırda yaxşılığı belə əbədi xatırlayar, kiməsə həyatı belə bağışlasan, yenə anlamaz, qədrini bilməz".

Mən bu həyatda tək şeyə inanıram. Heç kəs boşuna qarşımıza çıxmır. Həyat ya onları bizə dost edər, ya da bir dərs. Dərslər bizi böyüdər, düzdür, yaşadıqlarımıza kədərlənə bilərik, bəzən canımızı yandırar, amma gerçək dostu, düşməni tanımağımıza vəsilə olanlar da həmin insanlardır. Bir yerdə onlara təşəkkür edib geridə qoymalıyıq. Çünki həyat belədir, bəzən bizdən aldıqlarını başqa formada qaytarır bizə. Sadəcə həyatımızdan gedənlərdən savayı gələnləri də görmək lazımdır. Dərindən baxsaq görərik ki, bunun mənə gəlməsi üçün, mən nələrisə verməliyəmmiş. Deməli, nələrsə getməli imiş ki, daha yaxşıları gələ bilsin.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# DÜKAN QABAĞINDAKI ADAM



Marketin qabağında, adamların girib-çıxdığı üstüörtülü meydançanın tam ortasında dayanmışdı. Sanki sağından-solundan keçənləri görmürmüş kimi gözünü harasa, uzaq bir nöqtəyə dikmişdi. Yeyib-içib dünyadan köçüb elə beləsinə deyirlər. Əlində tutduğu torbanın dibində nələrinsə olduğu torbanın qırışlarından bəlli olurdu. Görünür alış-verişdən bir az qabaq çıxıbmış, nəyə görəsə ayaq saxlamalı olub. Kimisə gözləyə də bilərdi.

Bir ara baxışlarını meydançanın sağ tərəfində səliqə ilə düzülmüş gül dibçəklərinin, bukletlərin üzərində saxladı. Üzündə ani bir təbəssüm görünsə də, dalğın, kədərli sifətində bənd almadı. Qəfil gəldiyi kimi də çəkilib getdi. Sevdiyi qadının doğum günümü? Gülmü almaq istəyir? Bu gül-çiçək dəstələri ona uzaq keçmişdə sevdiyi qıza pulsuzluqdan ala bilmədiyi çiçəklərin acı xatirəsinimi yaşadır? Heç nə anlamaq mümkün deyildi. Sifətində ani görünüb, axan ulduz kimi tez də yaranmamışa dönən təbəssümündən də bir şey oxuya bilməzdin.

Cibindən telefonunu çıxarıb xeyli baxdı. Telefonunun yaddaşından unutduğu bir şeyimi aradığı və ya kimdənsə gələn mesajımı oxuduğu bəlli olmurdu. Kimdənsə zəng gözləyənə də bənzəmirdi. Adam marketin pulsuz internetinəmi qoşulmaq istəyirdi? Onun hərəkətləri o qədər namünasib idi ki, nə etmək istədiyi heç cür anlaşılmırdı. Üzünün ifadəsi sirli işarələrlə yazılmış kitabəyə bənzəyirdi.

Qəfil bir hərəkətlə telefonu cibinə soxdu. Kənardan baxanlar artıq onun çıxıb gedəcəyini düşünə bilərdilər. Ancaq o, yerində var-gəl edərək, baxışlarını marketin önündə düzülmüş maşınları sayırmış kimi gəzdirib yenə çiçəklərə baxdı. Bu dəfə üzündə heç bir ifadə dəyişmədi. Dəyişsə də dalğın, kədər basmış üzündə yarana biləcək yeni ifadəni oxumaq mümkün deyildi.

Baxışlarını çiçəklərdən ayırıb, maşınlardan bir az bəridə, marketin giriş-çıxışı ilə paralel duran səyyar mətbəx-bufetin üzərində saxladı. Onun yeməklərəmi, yoxsa pırtlaşıq saçları aşbaz papağının altından səliqəsiz şəkildə kənara çıxmış qırmızıyanaq qadınamı baxdığını anlamaq olmurdu.

Şişman satıcı-aşbaz növbəyə durmuş müştərilərə xidmət edir, arada elektrik ocaqlarda qızartdığı toyuq, balıq yeməklərinə baxmağı da unutmurdu. Üzərinə mayonez sürtülmüş yeməklərin qızartısı, müxtəlif ədviyyatların ətri, bir az da yanmış ət qoxusu marketdən çıxan istənilən adamın gözünə sataşır, burnunu qıcıqlandırır, ağzını sulandırırdı. Mətbəx-bufetin şüşə vitrinlərinə yapışdırılmış şəkilli menyudan istədiyin yeməyi seçə bilərsən. Yeməklərin qiyməti uzaqdan da nəzərə çarpırdı. Müştəri cibinə gənəşərək, mətbəxə yaxınlaşmaq və ya yaxınlaşmamaq qərarını özü verməli idi.

Marketin qabağında var-gəl edən adam ciblərini eşələyərək nəsə axtarırdı. Deyəsən, axtardığını tapmışdı. Ovcunda tutduğu sikkələr mağazanın işıqları altında aydın seçilirdi. Onun baxışlarıyla ovcundakı sikkələri saydığını diqqət edən hər kəs sezə bilərdi. Gözlərini xeyli müddət ovcundakı sikkələrdən ayırmadan hərəkətsiz qaldı. Sanki ovcundakı metal pulları ilk dəfə görmüş kimi onlara diqqətlə baxır, şəklini yadında saxlamaq istəyirdi. Baxışları yenidən mətbəxə yönəldi. Nə fikirləşdisə əlindəki sikkələri cibində gizləyib, əli ilə bir neçə gün əvvəl təraş olunmuş, tükləri payız qırovuna bənzəyən üzünü qaşıdı, bir az da gicgahını ovuşduraraq, yenə də ətrafa göz gəzdirdi. Tərəddüd etdiyi, qərarsızlığı bilinirdi. Hansı tərəfə üz tutacağını bilməyən qərib yolçuya oxşayırdı.

Yemək almağa pulunun çatıb-çatmadığını və ya yemək çeşidləri arasında onun ürəyinə yatan yeməyin olub-olmadığını bilmək çətin idi.

O, qəfildən mıxlandığı yerdən qoparılmış kimi tələm-tələsik yola düzəldi. Təcili işi çıxmış adam kimi addımlarını yeyinləşdirdi. Elə bil ocaqda yağı daşırdı.

Yeriyə-yeriyə sağ əlini sol əlində tutduğu torbanın içərisinə salıb nəsə axtardı. Torbadan çıxardığı nəyisə kimsənin görə bilməyəcəyi bir tərzdə ağzına apardı. Ağzına atdığı loxmanı başına silah dayanmış adam kimi könülsüz-könülsüz çeynəməyə başladı.

**Afiq MUXTAROĞLU**
*Almaniya*
*9 noyabr 2020*

## VAHİD MİLLİ İMTAHANLAR İYULUN 3-DƏ BAŞLAYIR




Bu il imtahanlar iyulun 3-də vahid milli imtahanlarla başlayacaq. Abituriyentlər iyulun 3-də gürcü dili və ədəbiyyatı fənnindən imtahan verəcəklər. İmtahanlar 26 iyulda fizika imtahanı ilə başa çatacaq. Tələbələr üçün qrant müsabiqəsi iyulun 5-də keçiriləcək. Magistratura imtahanları 17 və 18 iyulda baş tutacaq.

2024-cü ildə vahid milli imtanalara 47000-dən çox abituriyent qeydiyyatdan keçib. Tələbələr üçün qrant müsabiqəsində 3000-dən çox tələbə iştirak edəcək. Ümumi magistratura imtanalarına isə 10000-dən artıq namizəd qeydiyyatdan keçib.

***Vahid milli imtahanların keçiriləcəyi tarix:***

**Gürcü dili və ədəbiyyat:**
3 iyul (birinci və ikinci sessiya);
4 iyul (birinci və ikinci sessiya);
5 iyul (birinci sessiya);

**Osetin dili:**
3 iyul (birinci sessiya);

**Abxaz dili:**
4 iyul – (birinci sessiya);

**Xarici dillər:**
8 iyul (birinci və ikinci sessiya) – ingilis dili;
9 iyul (birinci və ikinci sessiya) – ingilis dili;
10 iyul (birinci sessiya) – ingilis dili;
10 iyul (ikinci sessiya) – rus dili;
10 iyul (ikinci sessiya) – alman dili;
10 iyul (ikinci sessiya) – fransız dili;

**Ümumi bacarıqlar (Azərbaycan dilində):**
11 iyul (ikinci sessiya);

**Ümumi bacarıqlar (erməni dilində):**
11 iyul (ikinci sessiya);

**Riyaziyyat:**
12 iyul (birinci və ikinci sessiya);

**Tarix:**
15 iyul (birinci və ikinci sessiya);
16 iyul (birinci sessiya);

**Kimya:**
16 iyul (ikinci sessiya);

**Tətbiqi və təsviri incəsənət:**
18 iyul (birinci sessiya);

**Biologiya:**
19 iyul (ikinci sessiya);

**Vətəndaş təhsili:**
23 iyul (ikinci sessiya);

**Coğrafiya:**
24 iyul (birinci sessiya);

**Ədəbiyyat:**
25 iyul (birinci sessiya);

**Fizika:**
26 iyul (birinci sessiya);

**Tələbələr üçün qrant müsabiqəsi:**
5 iyul (ikinci sessiya);

**Ümumi magistratura imtahanı:**
17 iyul (birinci və ikinci sessiya) – mətnin düşünülməsi, analitik yazı;
18 iyul (birinci və ikinci sessiya) – məntiqi təfəkkür, kəmiyyət əsaslandırması.

## MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR İYULUN 5-DƏ BAŞLAYIR




Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz fənn, xüsusi baş müəllim, baza peşə bacarıqları imtahanının vaxtlarını yayımlayıb.

Məlumata görə, müəllimlər üçün nəzərdə tutulmuş imtahanlar 5 iyulda başlayacaq və 26 iyula qədər davam edəcək. Müəllimlər üçün imtahanlara 18900-dən çox şəxs qeydiyyatdan keçib.

***Müəllimlər üçün fənn, xüsusi baş müəllim, baza peşə bacarıqları imtahanlarının keçiriləcəyi tarix:***

**5 iyul (ikinci sessiya):**
Xüsusi baş müəllim imtahanı;

**10 iyul (ikinci sessiya):**
Azərbaycan dili (ibtidai, baza və ya orta pillə);
Gürcü dili və ədəbiyyatı (baza və ya orta pillə);

**11 iyul (birinci sessiya):**
Baza peşə bacarıqları imtahanı;
Erməni dili (ibtidai, baza və ya orta pillə);
Musiqi;
Fizika (baza və ya orta pillə);

**15 iyul (birinci sessiya):**
Coğrafiya (baza və ya orta pillə);

**15 iyul (ikinci sessiya):**
Biologiya (baza və ya orta pillə);

**16 iyul (birinci sessiya):**
Riyaziyyat (baza və ya orta pillə);

**16 iyul (ikinci sessiya):**
Vətəndaş təhsili (baza və ya orta pillə);

**19 iyul (birinci sessiya):**
İtalyan dili (ibtidai, baza və ya orta pillə) (yazı hissəsi);
Gürcü dili (qeyri-gürcüdilli məktəblər üçün) (yazı hissəsi);
Fransız dili (ibtidai, baza və ya orta pillə) (yazı hissəsi);
Alman dili (ibtidai, baza və ya orta pillə) (yazı hissəsi);
Rus dili (ibtidai, baza və ya orta pillə) (yazı hissəsi);
İngilis dili (ibtidai, baza və ya orta pillə) (yazı hissəsi);
İdman;

**19 iyul (ikinci sessiya):**
İnformasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları (yazı hissəsi);

**21 iyul (birinci və ikinci sessiya):**
İnformasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları (praktik hissə);

**22 iyul:**
İtalyan dili (ibtidai, baza və ya orta pillə) (danışıq hissəsi);
Gürcü dili (qeyri-gürcüdilli məktəblər üçün) (yazı hissəsi);
Fransız dili (ibtidai, baza və ya orta pillə) (danışıq hissəsi);
Alman dili (ibtidai, baza və ya orta pillə) (danışıq hissəsi);
Rus dili (ibtidai, baza və ya orta pillə) (danışıq hissəsi);
İngilis dili (ibtidai, baza və ya orta pillə) (danışıq hissəsi);

**23 iyul (birinci sessiya):**
Təbiətşünaslıq (ibtidai pillə);
Riyaziyyat (ibtidai pillə);
Gürcü dili və ədəbiyyatı (ibtidai pillə);
Gürcü dili və ədəbiyyatı; Riyaziyyat və təbiətşünaslıq (I-IV);

**25 iyul (birinci sessiya):**
Tətbiqi və təsviri incəsənət;
Tarix (baza və ya orta pillə);

**26 iyul (birinci sessiya):**
Kimya (baza və ya orta pillə).

## MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI İYUL AYINDAN ARTIRILACAQ




İyulun 1-dən müəllimlərin əməkhaqqı yeni maaş sisteminə keçir. Tam qrafiklə işləyən müəllimlərin 70 %-nin əməkhaqqı təxminən 500 lari artırılacaq. Bu barədə Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvarinin parlamentə təqdim olunmuş hesabatında deyilir.

***“Yeni əməkhaqqı sistemi ilə bütün müəllimərin əməkhaqqı artırılacaq, təbii ki, dərs saatları çox olan müəllimlərin əməkhaqqı çox artırılacaq və tam qrafiklə işləyən müəllimlərin 70 %-nin əməkhaqqı təxminən 500 lari artırılacaq.***

***Yeni əməkhaqqı sisteminin əsas prinsipi keyfiyyətli təhsilin təmin edilməsi üçün ədalətli, şəffaf əməkhaqqı sistemi yaratmaqdır.***

***Keyfiyyətli təhsilin təmin edilməsi məqsədilə, təbii ki, sistem dəstək mexanizmləri hazırlayacaq ki, müəllimlər peşə və karyera inkişafına nail ola bilsinlər”,*** – nazirin hesabatında qeyd olunub.

*Səhifədəki məlumatlar “etaloni.ge” saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# NİYƏ XOŞBƏXT OLA BİLMİRİK?!



Bir el yığıncağında idim. Təsadüfən elə bil müxtəlif düşüncəli adamları seçib bizim masaya yığmışdılar ki, mən də kənardan onları izləyərək gerçəklik axtarışına çıxım. Müşahidəmin nəticəsinə keçmədən əvvəl xatirəmi vərəqləyim.

Yaxın ötən illərin birində Bakıda avtobusla gedərkən adətimiz üzrə telefonda qurdalanırdım. Birdən ucadan elə bil kimsə qəsdən diqqəti çəkmək üçün dedi: "Ora bax eee, işığı yanılı qoyublar. Günəş işığı varkən bu izafi xərc yersiz..."

Bu zaman ikinci səs: "Əgər o işığı söndürsələr kiminsə işığı yanacaq".

Bütün avtobusun diqqəti gənclərdə idi. Hamı, həmçinin mən də maraqla tanış cümlələrin istiqamətinə baxırdım.

Üçüncü gənc oğlan davam etdi: "Uşaqlar, həmişə boşa axan su kranını bağlayanda düşünün ki, kiminsə evinə su gedəcək, nə gözəl, eləmi?"

Hamı təəccüblə bu yersiz alınan danışığa diqqət kəsilsə də, yerlərdən sözlər atmağa başladılar: "Ay bərəkallah!", "İndiki cavanlarda hanı belə düşüncə", "Day belə olsa sosializm olardı ki"...

Bir nəfər dözə bilmədi: "A bala, film çəkirsiniz?"

Gənclər dönüb mənə baxdılar, hörmətlə gülümsədilər. Əvvəl biri, sonra digər ikisi əlini sinəsinə qoyub baş əyməklə salamlaşdılar. Növbəti dayanacaqda düşdülər. Sonda düşən geri dönüb gülümsəyərək dedi: "Düşərsiniz, müəllim".

Hamı çox maraqla mənə baxırdı. Qəribə bir sükut yarandı, çünki mən səssizcə ağlayırdım. Nə qədər istəsəm də göz yaşlarıma hakim ola bilmədim. Xatırladım onları. Mən beşinci sinifdə onların sinif rəhbəri olmuşdum. Bir il sonra analıq məzuniyyətinə getdim, qayıdanda isə o sinfə başqa müəllim təyin olunmuşdu. Artıq onlar 18-20 yaşlarında olardılar. Amma nə gözəl ki, onlara insanlıq təbliğlərimi unutmamışdılar. Hətta dediyim cümlələrin dəyərini yarıciddi, yarızarafat özümə xatırlatdılar...

Bəli, mən uşaqlarımla da elə danışırdım. Hətta Qorqudun dörd yaşı olanda bir qonaqlıqda yerə düşən çörək parçasını götürüb demişdi ki, Somalidəki uşaqlar buna həsrətdir. Əlbəttə, o coğrafi yox, anasının təbliğ etdiyi müqayisəni demək istəmişdi. Təbii ki, ətraf birmənalı qarşılamadı...

Əksəriyyət elə qəbul edir ki, mənim heç bir çətinliyim yoxdur, ona görə müsbət köklənirəm. Əslində isə, bəzən çətinliklərin yağışına düşürəm, nə kimsəyə deyir, nə şivən salıram, sakitcə səbirlə vəziyyətdən çıxmaq yollarını axtarır və tapıram – kimsəni incitmədən. Mən naşükür olmamağı anlatmaq üçün illərimi xərcləsəm də, görürəm ki, dünya köhnə dünyadır...

İndi gəlirəm gördüklərimə, eşitdiklərimə. Bütün insanlar eyni istiqamətdə təbliğat yönümlü yol seçməsələr də bir "görüb-götürmək" düşüncəsi də var yəqin. Əgər bunu mənə deməyiblərsə, bilmirəmsə, öyrənməyi kim mənə qadağa qoyur ki, niyə yaxşı olanları seçməyim ki...

Psixologiyada insanın ətraf mühitə reaksiyası temperament tipləri ilə yekunlaşır, amma o tip heç də dörd tipə bölünmürmüş. Mən hər dəfə məclislərdə olduqda yeni kəşflər edirəm. Bu dəfəki komanda 8 nəfərdən ibarət bir masa idi. Mən burada 8 növ xasiyyət, 8 növ həyata baxış, 8 növ də nəticə gördüm. Kiminsə geyimindən şəxsi həyatına, kiminsə rəqsindən əxlaqına və daha nələr müzakirə etmədilər. Sonra keçdilər sağlıqlarına. Heç biri xəstə görünməsə də xəstəhal olduqlarını, özəl problemlərini böyüdərək danışmağa başladılar. Yalnız mən dinləyirdim. Belə çıxırdı ki, ən problemsiz, xoşbəxt adam mən imişəm. Halbuki maddi səviyyələri də, fiziki vəziyyətləri də sağlam görünürdü. Adama elə gəlirdi ki, sadəcə "nəzər qaytarmaq" üçün danışırlar.

Anam deyərdi ki, xoşbəxt olmaq üçün həmişə özündən aşağı bax, yuxarı baxsan heç vaxt xoşbəxt olmayacaqsan. Əgər sənin sağlığın yerində, övladların varsa, bu, həyatın birinci xoşbəxtliyidir. Anlayışı olan ailən varsa ikinci xoşbəxtliyindir. Başın üzərində daxman və bir tikə ruzin varsa "hələ yaşamağa dəyər bir az da"... Bəs bu adamlar niyə naşükürdürlər? Maddiyyat artdıqca nəinki sosial izafi, hətta doğmalıq, dostluq, yoldaşlıq da dəyişir...

Deyirlər ki, kimləsə ilk görüşdə gülərüzlə qarşılayanda qarşıdakına da müsbət enerji verirsən, bu əks olunaraq özünə də təsir edir. Əksinə, mənfi enerji verdikdə yenə özünə qayıdır. Olmazmı adamlar bir-biri ilə qarşılaşanda xoş niyyətlə danışa. Guya kim kimin tökdüyü "qaramatı" qəbul edir ki... Axı heç kim xoşbəxt deyil, heç kim bədbəxt olmadığı kimi.

İnanın, xoşbəxt olmaq şansımız var. İstəyərək onu yaxınlaşdırmaq olar. Bax, bizim masada oturan qadınların heç biri bədbəxt deyildi, sadəcə xoşbəxt ola bilmirdilər, "qaramat" yığını idilər. Onların yaratdığı aura başımı gicəlləndirirdi, tezcə oradan uzaqlaşmaq istəyirdim.

Gəlin xoş niyyətlərimiz, gülər üzümüzlə ətrafımıza işıq saçaq, dünyamız işıqlansın, çünki o işıq hamımıza düşəcək.

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# ELMƏ VƏ TƏHSİLƏ HƏSR OLUNMUŞ ÖMÜR





Gürcüstanın Borçalı mahalı özünəməxsus gözəlliyi, tarixi olan bir diyardır. Bu bölgə uzun əsrlərdən gələn qədim mədəniyyəti, milli şüuru, adət-ənənələri olmaqla yanaşı, xalqın yaddaşında iz buraxan şəxsiyyətləri ilə də məşhurdur. Bu şəxsiyyətlər Borçalının özü qədər qədim mədəniyyətinə, ədəbiyyatına, tarixi yaddaşına öz adlarını yazmışlar. Əsrlərdən üzü bəri gələn qədim tariximizin, mədəniyyətmizin və milli mənsubiyyətimizin qorunub saxlanmasında və gələcək nəsillərə ötürülməsində əvəzsiz xidmətlər göstərən insanlar bizim üçün çox dəyərlidirlər. Məhz belə şəxsiyyətlər tarixin müxtəlif dönəmlərində xalqına xidmət etməklə onun tərəqqisinə, inkişafına xidmət etmiş olublar. Öz yurduna, elinə xidmət edən, ona sevgi və qayğı ilə yanaşan insanlarımız bizim milli sərvətimizdir.

Belə insanlardan biri Vəkil Xəlilovdur. O, 1937-ci ildə Bolnisi rayonunun Əsmələr kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində alan Vəkil müəllim daha sonralar Qoçulu və Arıxlı kəndlərində yerləşən məktəblərdə orta təhsilini tamamlamışdır. Vəkil Xəlilov öz arzusunun dalınca Azərbaycana, Bakıya getmiş və 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya-biologiya fakültəsinə qəbul olmuşdur. Öz istedadı, bacarığı sayəsində universitetin fəal tələbələrindən olmuş Vəkil Xəlilov müəllimlər və tələbələr arasında böyük hörmət və nüfuz sahibi olmuşdur. 1964-cü ildə universiteti uğurla bitirdikdən sonra qısa bir müddət ərzində Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutunun botanika ixtisası üzrə aspiranturasına qəbul olub. Sonrakı illərdə elmi tədqiqat işlərini Rusiyanın Moskva şəhərində yerləşən Ümumittifaq Elmi Tədqiqat Vitaminologiya İnstitutunda davam etdirib və 1971-ci ildə biologiya elmləri namizədi dərəcəsi alıb. Daima elmi yaradıcılıq axtarışında olan Vəkil Səməd oğlu respublika və keçmiş Sovet məkanında olmuş elmi konfranslarda mütəmadi iştirak etmişdir. O, elm sahəsində müəyyən önəmli işlər gördükdən sonra pedagoji fəaliyyətlə məşğul olmuş və müəllim kimi çalışmışdır.

Ömrünün böyük hissəsini Gürcüstanda keçirmiş Vəkil Xəlilov müəllimlik fəaliyyətinə də məhz burada başlamışdır. O, Bolnisinin Qoçulu kəndində yerləşən və nə vaxtlarsa təhsil aldığı məktəbdə kimya- biologiya müəllimi kimi çalışmışdır. O, xalqın sevimli alimi olmaqla yanaşı, sevimli müəllimi də olub. Müəllim kimi çalışdığı məktəbdə sonralar direktor vəzifəsinə qədər yüksəlmiş, uzun illər bu vəzifədə layiqincə çalışmışdır. Həmkarlarının, şagirdlərinin yaddaşında əsl ziyalı kimi iz buraxan Vəkil müəllim həm də "Gürcüstanın Əməkdar müəllimi" adına layiq görülmüşdür.

Mütəmadi olaraq müəllimlər qurultaylarının mötəbər nümayəndəsi olmuş Vəkil müəllim pedaqoji fəaliyyətlə yanaşı, kənd, rayon sovetlərinin deputatı olmuşdur. Eyni zamanda rayon partiya komitəsinin sədri vəzifəsində də çalışmışdır.

Ömrünün son illərini Azərbaycanda yaşayan Vəkil müəllim elmi yaradıcılığını davam etdirmiş və 30-a yaxın elmi məqalə və kitablar yazmışdır. Bütün ömrünü elmə, inkişafa, təhsilə həsr etmiş və müxtəlif vəzifələrdə çalışmışdır.

Dəyərli ziyalımız eyni zamanda gözəl ailə başçısı olub. Vəkil müəllimin böyük ailəsi, çoxlu sayda nəvələri var və onlar Xəlilov soyadını qürurla daşıyırlar. Öz torpağına, xalqına bağlı olan dəyərli ziyalımızın xalq arasında nüfuz və örnək sahibi olması minlərlə gəncin düzgün istiqamətdə yetişdirilməsinə əvəzsiz töhfəsini vermişdir. O, artıq həyatda olmasa da adı həmişə yaddaşlarda yaşayır, hər zaman hörmət və sonsuz sevgi ilə anılır. Vəkil Xəlilov kimi insanlar ölümündən sonra belə örnək olaraq qalırlar.

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*



# SÖZDƏ MÜASİRLİK

Bütün dünya inkişaf etsə də bizim cəmiyyət hələ də müasirlikdən xəbərsizdir. Bir söz deyən kimi o dəqiqə başlayırlar: "Neçənci əsrdə yaşayırıq, müasir insanlarıq". Amma sözün əsl mənasına gəldikdə, müasirlik nədir, mən müasir insanammı suallarını özlərinə vermirlər. Müasirliyi tək geyimdə, böyüklərə qarşı münasibətdə, texnologiyalarda, robotlarda və sairə və ilaxırda görürlər. Artıq "müasirlik" sözü köhnə dünyagörüşlü insanların dilindən düşməyən söz halına gəlibdir.

Ötən günlərdə baş verən bir mübahisə haqqında danışmaq istəyirəm. Səhər tezdən universitetə gedərkən avtobusu orta yaşlı bir qadın və nənə dayandırdı. Amma avtobusda sadəcə bir nəfərlik yer var idi. Qadın dedi ayaq üstdə duracam. Qadını tanıyan qız qalxıb yerini ona verdi. Aralarında belə bir dialoq oldu:

– Biy, ay bala, sən filankəsin qızı deyilsənmi?

– Hə, xala.

– Hara gedirsən, ay bala, belə tezdən? O gün sənin şəklini gördüm, kimsə yenə paylaşmışdı.

– Dərsə gedirəm. Hə, universitetlə əlaqəli tədbir var idi, ora qatılmışdım.

– Oxu, bala, yaxşı edirsən, oxumaq yaxşı şeydir...

Çox vaxt eşitdiyimiz cümlələr idi. Qız avtobusdan düşənə kimi hər şey normal qaydasında idi. Amma işin qəribə tərəfi isə ondadır ki, qız avtobusdan düşən kimi qadın başladı yanındakı nənə ilə danışmağa:

– Elə yaxşı uşaqdı. Amma ata-anası hara baxır, bilmirəm. Bütün günü internetdə bunun şəkillərini paylaşırlar (Tədbirlərdə çəkilən şəkillərdən söhbət gedir). Heç ata olan filankəssə demir ki, ay bala, sabah, biri gün ailə həyatı quracaqsan, ayıb deyilmi sənin şəkillərini paylaşırlar...

Başa düşə bilmirəm bu necə düşüncə tərzidir. Sanki pis bir iş görüb. Xaricdə insanlar Marsda yaşamağın xəyalını qurur, bizimkilər isə yenə də onun-bunun həyatı ilə maraqlanıb, ikiüzlülük etməyə davam edirlər. Hər kəs öz həyatı ilə maraqlanıb, öz ailəsinə daha çox vaxt ayırsa dünya daha çox gözəlləşəcəkdir. Amma deyəndə ki, uşaqlarınıza bir az vaxt ayırıb məşğul olmalısınız, həmin dəqiqə "boş vaxtımmı var, işləyirəm" deyirlər. Başqalarının həyatına burunlarını soxmaqdan boş vaxtları olmaz, əlbəttə.

Biz müasir deyilik, belə düşüncə tərzi olan insanlar müasir deyil. Amma müasir sözünü tez-tez istifadə etməyi sevirik. Müasir sözünü tez-tez demək əvəzinə, müasir olmağa çalışsaq daha gözəl olmazmı?

Məsələn, müəllim və yaxud universitet bitirən şəxslər haqqında danışarkən "çox müasir qadındı, kişidi" deyirlər. Onda bizdə sual yaranır: hər oxumuş insan müasir ola bilərmi? – Əlbəttə, xeyr! Elə müəllimlər, elə həkimlər, biznes sahibləri var onlarla oturub söhbət etdikdə öz-özünə başlayırsan deyinməyə: "Müəllimə bax, danışdıqları sözə bax. Çoxlarımız da bundan örnək götürürük"...

Bu yaxınlarda universitetdən qayıdarkən sevimli müəllimlərimdən biri ilə rastlaşdım və yol boyu söhbət etdik. Əvvəlcə hər şey normal qaydada gedirdi, sonrası mənimçün ürəkaçan olmadı. Bəlkə də belə düşünməyimə səbəb ilk dəfə bir müəllimdən belə sözlər eşitməyimdir. Çünki biz müəllimlərdən hər zaman OXUYUN sözünü eşitmişik. Mənə dediyi sözlər hələ də, necə deyirlər, nöqtəsinə, vergülünə kimi yadımdan çıxmayıb: "Qızım, nə vaxt getməyi fikirləşirsən. Daha universitetə də qəbul oldun. Evdəkilər də yazıqdı. Nişanlan, bir az da onlar çəksin xərcini". Əvvəlcə səhv eşitdiyimi düşündüm. Çünki heç gözləmədiyim insandan eşitdiyim söz idi. Sonra yenə eyni cümləni təkrar etdi. Həmin dəqiqə heç nə deyə bilmədim. Dedim, bəlkə mən nəyisə səhv başa düşürəm. Bəlkə yaxşı mənada bir şey deməyə çalışıb. Sanki bütün sözlər ağlımdan silinmişdi...

Son vaxtlar çoxlarının düşüncəsi ilə razılaşmaq fobiyam halına gəlibdir. Bilmirəm bu mənim problemimdir, yoxsa hələ də köhnə düşüncəli insanların dəyişməməsidir. Belə bir cümlə oxumuşdum, tam dərk edə bilməmişdim, amma bu olanlardan sonra bunu yazan şəxsin nə demək istədiyini başa düşdüm: "Bəziləri nə yeyirlər, nə də yedizdirirlər". Əgər parlaq gələcək, müasir cəmiyyət istəyiriksə, digərlərinin yolunda qaya olmayaq!

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# EYNİ YAŞ, FƏRQLİ HEKAYƏLƏR



Adım Rauldur. 16 yaşım var. Bu yaşa çatdıqdan sonra dünyanın ədalətsiz olduğunu başa düşməyə başladım. Biz tez-tez insanların həyata, bir-birlərinə, hətta öz övladlarına qarşı bir növ daha aqressiv olduqlarını düşünürük. Xeyirxahlıq müasir cəmiyyətdə əhəmiyyətini itirib. Mentalitet sərtləşib. Hər kəs öz problemlərində, öz eqoizmində boğulur.

Həmyaşıdlarımın öz həyatlarını, yaşadıqlarını, əylənidiklərini, sabahı düşünmədikləri halda mənim kimi və bəzi imkanları olmayan tələbələr pul üçün uşaqlıqlarını qurban verirlər. Pul qazanmaq, universitet pulunu ödəmək üçün gündə 14 saat işləyirlər və düşünürəm ki, bu problemlə imkanları olmayan və ya etibar edə biləcəkləri yaxınları olmayan bir çox gənc qarşılaşıbdır. Bunların hər birinin altında uşaqlıqdakı yaşantılar dayanır...

Hər bir uşağın valideynlərinə ehtiyacı olur – sevildiyini və qəbul edildiyini eşitmək istəyir. Valideynlərdən hansısa bir dəstək və sevgi alan bir çox uşaq başqalarına qarşı daha aqressiv, hörmətsiz yanaşırlar və sahib olduqlarını qiymətləndirmirlər; həyatda ən dəyərli şeyə – valideynlərə sahib olduqlarını təsəvvür etmirlər. Bilirsiniz, bir çox insanın xəyalı sadəcə valideynlərinin olmasıdır. Valideynlərdən heç bir dəstək və sevgi almayan uşaqlar daha sakit, özlərinə inamsızdırlar, həyatda çox vaxt səhv qərarlar verirlər və özlərindən şübhə edirlər. Çünki uşaqlıqda onlara nəyin doğru, nəyin səhv olduğu öyrədilməyib və valideynlərdən heç biri onlara heç vaxt düzgün yolu göstərməyib. Buna görə də insanlar çox səhv edirlər. Amma məncə, nə səhv etsəniz də həyat bununla bitmir, ayağa qalxmaq və yenidən cəhd etmək lazımdır, çünki sizdən başqa heç kim sizi ayağa qaldıran deyil.

Çox duyğulandığım bir videoya rast gəldim. Sahib olduğumuzu qiymətləndirməyən bir nəsil olduğumuzu başa düşdüm. Videoda iki qrup uşaqlar göstərilirdi. Birinci qrup uşaqlar valideyn sevgisi görən, məktəbdə təhsil alan, əylənən, imkanı olan uşaqlar idilər. İkinci qrup uşaqlar isə imkansız, müharibələrin baş verdiyi ölkələrin vətəndaşları idilər; atasızlığın, anasızlığın nə olduğunu çox yaxşı bilirdilər; ailə sevgisinə həsrət qalan uşaqlar idilər. Hər iki qrupdakı uşaqlardan ən çox nə xəyal etdiklərini soruşurlar. Birinci qrupdakı uşaqlar yalnız pul xəyal edirdilər. İkinci qrupdakı uşaqlar isə vəfat edən ailə üzvlərini ən azı 1 dəfə görmək, valideynlərini və qardaşlarını tanımaq, sabah nə edəcəklərini düşünmədən yaşaya biləcəkləri isti, rahat bir ev, məktəbə getmək istəyirdilər... Bu təcrübə bizə onu göstərir ki, müasir uşaqlar itirmədən çox şeyin qədrini bilməzlər.

İnsan özünə bənzəməyən, "xüsusi" insanlar deyilən, nadir xəstəliklərdən əziyyət çəkən, xəstə olan uşaqlara ən yaxşı halda laqeyd yanaşırlar, ən pis halda isə onlardan üz döndərirlər, barmaqları ilə göstərirlər, təhqir edirlər, alçaldırlar, lağ edirlər...

Heç vaxt sülh, sevgi görməmiş insanlar və dünyanın müharibələrini və qəddarlığını görməmiş insanlar fərqli dəyərlərə sahibdirlər...

**Raul BƏDƏLOV**
*Qardabani 3 nömrəli məktəbin şagirdi*

# GÜLÜŞÜN ESTETİKASI

**Elizbar CAVELİDZE**



*(əvvəli ötən sayda)*

Demək olar ki, hər bir xalqda, hər bir cəmiyyətdə hər çağda ortaya çıxan ədalətsizlik fikir adamlarının və sadə insanların əsas qınaq obyekti olmuşdur. Dəfələrlə qeyd etdiyim kimi, ədalətsizliyin xroniki və etnik çərçivəsi yoxdur. Buna görə də onun ifşası həmişə və hər yerdə ümumi xarakter daşımışdır. Budur, türk xalq poeziyası ədaləti və onu icra edən məhkəməni bizə necə təsvir edir:

***"Mahkeme meclisi icat olduğu***
***Çeşme-i rüşvetin akmaklığından.***
***Kaza belâ ile âlem dolduğu***
***Kazların kadıya uçmaklığından."*** *(Elə orada, səh. 121).*

Yaxşı, bir anlığa fikirləş, ey oxucu, insanlar bu dörd sətri indiki məhkəməyə həsr etsələr, nəsə səhv olar, yoxsa vəsvəsə?! Məncə – yox, çünki indiki məhkəmə də rüşvət yuvasına çevrilib və bizə daha çox "qazları" hakim təyin edirlər.

Ancaq gəlin elə birinci sözə keçək. İndi gəlin Türkiyə reallığına qayıdaq.

Türk şifahi ədəbiyyatına görə, hakimin əsas fəaliyyəti sərmayə toplamaqdır ki, bunu da yetimlərin malını alver etməklə əldə edirlər. Rüşvət almağa meyl onların "saleh" qəlblərinin insafsızlığı ilə şərtləndirilib *(Elə orada, səh. 123).*

Nəhayət, bu sırtıqlığı, hakimlərin cilovsuzluğunu əmələ gətirən mənbə olaraq hakimiyyət hesab olunur, ona görə də Rəbb onu axırda sorğu-sual edəcək.

***"Bu nasıl hükümet, bu nasıl gidiş?***
***Yarım kıl bütünü soracak Allah.***
***Semaya çekildi insaf, adalet***
***Bir dahi hükümet kuracak Allah."*** *(Elə orada, səh. 123).*

Bəzən belə də olur, bir qayda olaraq, insanlar ölkədəki iyrəncliyi hakimiyyətin cinayəti hesab edirlər, çünki onların həyat təcrübəsi onları inandırır ki, əgər kanala çirkli su gəlirsə, bu çirk mənbədən gəlir. Türk xalqı da ədalətsizliyi və Tanrı tərəfindən nizama salınan qaydaların pozulmasını, eləcə də bu dünyanın hökmdarlarının bir-birinə bənzəməməsi ilə izah edir, əks halda, onların baxışlarına görə bütün bu iyrəncliklərin yaradıcısı Allah ola bilməz! Ona görə də o, acı istehza ilə oxuyur:

***"Böyle mi gönderdi hükm-ü Kur'an'ı?***
***Böyle mi indirdi emr-ü fermanı?***
***Böyle mi severler dini, imanı?***
***Ne yüz ile sana verecek Allah?"*** *(Elə orada, səh. 124).*

İnsanları o təəccübləndirir ki, bu dövlətin günahkar valiləri aləmi yaradan Rəbbi bir dəfə də olsun xatırlamırlar, bir dəfə də olsun günahlarından tövbə etməyə cəhd etmirlər, onlar fani olduqlarını və "Allahın bu mərhəmət edilmiş ruhu geriyə alacağını" unudurlar *(Elə orada, səh. 124).* Ona görə yadlarına düşmür ki, onların bioloji nəfs mərkəzi məişət-həyatını tamamilə yönləndirdi, onları tamamilə gümüşə, pula qul etdi və Allah ədalətli hökmünü verəcəyi zaman tezliklə qiyamətə çıxarılacaqlarını unudurlar *(Elə orada, səh. 124).*

İnsanlar çıxılmaz vəziyyətə düşəndə Allah yenə onların ümididir. Onlar Allahın ədalətsizliyə və zülmə son qoyacağına inanırlar. O, ədalətli hakim kimi hamını qıl körpüdən keçirəcək, ədalət isə zəfər çalacaq. Buna görə də ümid dolu istehzalı təbəssümlə hakimiyyətə bir daha xəbərdarlıq edir.

***"Haram helal demez seçmezdin yerdin***
***Elbet kalır sandın mekânın, yurdun***
***Zulmile bu kadar devlete erdin***
***Hak mizan terazi kuracak Allah."*** *(Elə orada, səh. 124).*

Və həyat bataqlığında boğulan, maddi sərvətdən məhrum olan dövlət məmurlarının ünvanına belə hədələr kəsilməyəndə dünyanın fani olması, ölümün qaçılmaz gəlişi haqqında məzəmmət eşidilir ki, ardınca az qala bütün yer kürəsində yayılan nəsihət gəlir: ölüm tezcə sənə yaxınlaşır və kədərlənmə, bu dünyadan kəfəndən başqa heç nə apara bilməyəcəksən:

***"Hele fikret nere varacak halin?***
***Gün be gün dolmakta yakın zevalin***
***Bir top bezden fazla var mıdır malın?***
***Yarattığın rızkın verecek Allah."*** *(Elə orada, səh. 124).*

Xalqın "Dövrün hökmdarlarına qarşı şikayətnamə" (şikayət dəftəri) adlandırdığı, xalqın səmimi kədəri və bu kədəri dəf etmək üçün böyük istəyin yarandığı, böyük gözyaşardıcı kinayə ilə dolu elegiya kimi qəbul etdiyimiz bu uzun şeir bu beyt ilə bitir. Eyni zamanda, onun içində dərin şəkildə sərgilənən sarkazm sadə estetik incəliyi və səmimi duyğusu ilə dinləyicini və ya oxucunu məftun etməməsi mümkün deyil!

Bir sözlə, yuxarıdakı qısa icmaldan belə inandırıcı olur ki, türkdilli xalqlar adətən onların məğlubiyyəti ilə nəticələnən zorakılıq və ədalətsizliklə mübarizədənsə, ürəkaçan gülüş və qaranlıq istehzaya üstünlük verirdilər, bu da onlara imkan daxilində mənəvi üstünlük verirdi. Yuxarıda artıq qeyd etdim, mənəvi uğursuzluğa və yıxılmağa dözmək fiziki məğlubiyyətdən və təhqir olunmaqdan daha çətindir. Ona görə də türk xalqı iti gülüş qılıncı ilə cəmiyyətin bütün təbəqələrini – istər yurdun qəddar və amansız fatehi olsun, istərsə də yoxsul, qərib bir dərviş olsun – tozlayan Xoca Nəsrəddini yenilməz bir qəhrəmana çevirib. Və bununla da ona (xalqa) bir növ şücaət, dözüm, sağlamlıq və mənəvi rahatlıq verirdi. Elə burada onu da xatırlayaq ki, gülüş, ümumiyyətlə, insana sağlamlıq və mənəvi güc verir. Belə ki, hədəflənmiş gülüş xalqın yaralı orqanizmi üçün dərdə əlac kimi münasibdir. O ki qaldı əsas məqsədi bu və ya digər şəxsi və ya hadisəni kökündən qoparmaq və yerlə-yeksan etmək olan "Taşlama"nın gizli sarkazmı maskalanmış mesajı ilə seçilir. İyrənc gülüş üzərində qurulsa da, Xoca Nəsrəddin lətifələrini səciyyələndirən gülüş təsirini yaratmağa çalışmır, bu və ya digər qüsurlu hadisəni, şəxsi hər hansı bir şəkildə daşqalaq edib basdırmağa cəhd göstərir. Hər iki halda məqsəd və nəticə eynidir: mənəvi üstünlüyü aşılamaq, amma müxtəlif üsullarla. Bu yanda gülüşdür, o yanda qəzəb və amansızlıqdır. Və hər halda, ən əsası, bu üsulların hər ikisi emosiya oyadır – bu halda onun müsbət və ya mənfi olmasının fərqi yoxdur, çünki sonda onların hər ikisi estetik qavrayış spektrində transformasiya olunur və estetik kateqoriya kimi görünür.

Təbii ki, türkdilli xalqın estetik baxışı bu tematik qövslə məhdudlaşmır və başqa, daha geniş sahələri də əhatə edir ki, buna da aşağıda toxunmalıyıq.

(son)

Müəllif: **Elizbar CAVELİDZE**

Gürcü dilindən tərcümə etdi:

**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN
2024-CÜ İL
№ 11 (206)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GÜRCÜSTANA YATIRILAN İNVESTİSİYALARA GÖRƏ TÜRKİYƏ LİDERLİK EDİR




Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına əsasən, Azərbaycanın 2024-cü ilin yanvar-mart aylarında Gürcüstan iqtisadiyyatına birbaşa investisiyaları 12,7 milyon ABŞ dolları təşkil edib.

2023-cü ilin eyni dövründə Gürcüstandan Azərbaycana 7,5 milyon ABŞ dolları həcmində investisiya geri qaytarılıb.

Birinci rübdə Gürcüstana birbaşa xarici investisiyaların ümumi həcmində Azərbaycanın payı 6 % təşkil edib.

Məlumatda bildirilib ki, 2024-cü ilin yanvar-mart aylarında Gürcüstan iqtisadiyyatında birbaşa xarici investisiyaların ümumi həcmi 201,4 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 64,4 % azdır.

**Birinci rübdə Gürcüstana birbaşa investisiyaların həcminə görə 21 % xüsusi çəki ilə Türkiyə (42,4 milyon ABŞ dolları) lider olub.** Onu Çexiya 41,5 milyon ABŞ dolları (20,6 %) investisiyaları və ABŞ (33,7 milyon ABŞ dolları, 16,7 %) izləyib.

Hesabat dövründə birbaşa xarici investisiyaların ən böyük həcmi Gürcüstanın enerji sektoruna yatırılıb – 78,7 milyon ABŞ dolları və ya ümumi həcmin 39,1 %-i (2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə 21,5 % çox). İkinci yerdə ticarət sektoru – 39,5 milyon ABŞ dolları və ya 19,6 % (56,4 % az), üçüncü yerdə nəqliyyat – 38,8 milyon ABŞ dolları və ya 19,3 % (10,4 % az) qərarlaşıb.

2023-cü ildə Gürcüstan iqtisadiyyatına birbaşa investisiya qoyuluşu 24 % azalaraq 1,6 milyard ABŞ dolları təşkil edib ki, bunun da 53,6 milyon ABŞ dolları Azərbaycan investisiyalarıdır.

# GÜRCÜSTAN MİLLİ BANKININ XARİCİ VALYUTA EHTİYATLARI AZALIB




Cari ilin yanvar-may ayları ərzində Gürcüstan Milli Bankının xarici valyuta ehtiyatları 409,6 milyon lari azalıb. Bu barədə Milli Bankın saytında məlumat verilir.

Cari il mayın 31-nə olan məlumata görə, bankın xarici valyuta ehtiyatları 4,6 milyard dollar təşkil edib ki, burada da 214,3 milyon dollarlıq azalma qeydə alınıb.

Bundan başqa, bank may ayında hərracda 107 milyon dollar satıb.

Qeyd edək ki, Gürcüstan Milli Bankının xarici valyuta ehtiyatları 2023-cü ilin 31 avqustunda ən yüksək həddə artaraq 5436,8 milyon dollar olub. Bu da müstəqillik tarixində bankın valyuta ehtiyatları üçün ən böyük məbləğ olub. Ötən il bankın xarici valyuta ehtiyatları 101,5 milyon lari artıb.

## 2014-CÜ İLDƏN ƏVVƏL İSTEHSAL OLUNMUŞ YÜK MAŞINLARI VƏ AVTOBUSLARIN ÖLKƏYƏ İDXALI QADAĞAN OLUNACAQ



Gələn il yanvarın 1-dən Gürcüstana 2014-cü ildən əvvəl istehsal olunmuş yük maşınlarının və avtobusların idxalı qadağan ediləcək. Bu barədə Gürcüstanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, məhdudiyyət ölkənin işlənmiş qazlarda zərərli maddələrin tərkibini tənzimləyən Avro-5 standartına keçidi ilə əlaqədar tətbiq edilir, ölkədə olan, eləcə də təkrar ixrac və tranzit məqsədilə ölkəyə gətirilən avtonəqliyyat vasitələrinə aid edilməyəcək.

Xatırladaq ki, bu il yanvarın 1-dən Gürcüstan Avro-5 standartına uyğun olmayan minik avtomobillərinin idxalını dayandırıb. Bunlar, əsasən 2013-cü ildən əvvəl istehsal olunmuş avtomobillərdir.

## GÜRCÜSTANLA AZƏRBAYCAN ARASINDA YENİ GÖMRÜK-KEÇİD MƏNTƏQƏSİ AÇILACAQ



Gürcüstanla Azərbaycan arasında yeni gömrük-keçid məntəqəsi açılacaq. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin parlamentə təqdim etdiyi illik hesabatında məlumat verilir.

Sənədə əsasən, artıq tərəflər arasında müqavilə layihəsi razılaşdırılıb, memarlıq layihəsi hazırlanır.

“Gürcüstan və Azərbaycan arasında yeni birgə gömrük-keçid məntəqəsi ölkələrin tranzit və logistika imkanlarının inkişafına töhfə verəcək, regionun nəqliyyat və ticarət əlaqələrini daha da gücləndirəcək”, – deyə məlumatda bildirilir.

## GÜRCÜSTANIN XARİCİ BORCU ARTIB



Ötən il Gürcüstanın dövlət borcu 2,8 milyard lari artıb. Bu barədə “Forbes” nəşri Beynəlxalq Valyuta Fonduna (BVF) istinadla məlumat yayıb.

Bildirilib ki, Gürcüstan bu göstərici ilə dünyanın 188 ölkəsi sırasında 141-ci yerdədir.

BVF-nin məlumatına görə, Gürcüstan hökumətinin xarici borcu 2023-cü ildə ümumi daxili məhsulun 39,2 faizini təşkil edib.

Qeyd olunan dövrdə hökumətin xarici borcu 1,407 milyon lari, daxili borcu isə 1,411 milyon lari artıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.